Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu, ISSN 2224-9257
Filologiya məsələləri № 3, 2024
Səh. 424-428
https://doi.org/10.62837/2024.3.424

**KAMİLOVA LALƏ AYƏDDİN QIZI**
*Bakı Slavyan Universiteti*
*E-mail:lala.kamilova10@gmail.com*

# SOMERSET MOEMIN YARADICILIĞINDA AİLƏNİN MƏNƏVİ ƏHƏMİYYƏTİ

**Açar sözlər:**Somerset Moem,ailə,cəmiyyət,mənəvi dəyərlər,ailə dəyərləri,şəxsi həyat,ədəbiyyat,tərbiyə.
**Key words:** Somerset Maugham, family, society, moral values, family values, personal life, literature, education.
**Ключевые слова:** Сомерсет Моэм, семья, общество, моральные ценности, семейные ценности, личная жизнь, литература, образование.

İnsanın bütün həyatı boyu ən diqqətli yanaşdığı mövzulardan biri də ev, ailə mövzusudur.Elə ki, ailə bütün ömür boyu yol yoldaşımız, əsas dəstəkçimiz, uğur qaynağımız olur. Hesab olunur ki, hər bir fərd ailə daxilində gördüyü tərbiyə, psixoloji yanaşma, və sevgini cəmiyyət arasında əks etdirən bir vahiddir. Ailə nisbətən kiçik vahid hesab olunsa belə onun cəmiyyətdə tutduğu mövqe və cəmiyyət üçün əhəmiyyəti böyükdür.Sosiologiya elminin banisi Ogüst Kont ailə haqqında çox gözəl fikirlər söyləmişdir.Məsələn: "Ailə ənənələrin, keçmiş nəsillərin təcrübəsinin qoruyucusu və ötürücüsüdür. Fərd ailədə sosiallaşır, bəşəriyyətə uğurla xidmət etmək üçün zəruri olan keyfiyyətləri əldə edir, təbii fərdiyyətçiliyi aradan qaldırır, "başqaları üçün" yaşamağı öyrənir. O, eyni zamanda, nəsillər arasında mehriban münasibətlərin ictimai müvazinətini, daşıyıcıları yaşlılar və gənclər olan ənənələrlə novatorluq arasında tarazlığı qoruyub saxlayır". [3,s.10.]Həmçinin Kont qadının ictimai həyatda rolunu üstün tutur.Bu o deməkdir ki, həyatın başlanğıcı,insan soyunun davamı olan qadın həm də cəmiyyətin əsas qurucusudur.Bu mövzudan çox geniş yazmaq olar. İnsan həyatının demək olar ki, bir çox talelərini özündə ehtiva edən ədəbiyyat ailə mövzusundan da yan keçməmişdir. Amma ədəbiyyatda heç də həmişə nümunəvi ailə strukturundan söhbət getmir. Bəzən problemli, bir birindən pərən-pərən düşmüş, fərdlərinin arasında laqeydlik olan ailələr də ilham qaynağı olur. Hər bir yazıçının bu cəhətdən üslubu, baxış tərzi çox müxtəlif olur. Avropada ailə quruluşu Azərbaycanda olan ailə dəyərləri ilə tarix boyu həm ortaq həm də fərqli cəhətlərinə görə ayrılmışdır. Əsas məqsəd burada verilən ən ümdə məsələləri təhlil edib detallara zərgər dəqiqliyi ilə yanaşmaqdır.Ən bariz nümunə olaraq ingilis yazıçısı Somerset Moemin yaradıcılığını götürə bilərik.Somerset Moem kiçik yaşlarından taleyin ona biçdiyi ata-anasız övlad roluna boyun əyməli olmuşdur.Onun səkkiz yaşı olanda anası vəfat etdi.İki il sonra da atası onun ardıca vəfat etdi və yetim uşaq Kent ştatının Uaytbl şəhərindəki ruhani əmisinin yanına göndərildi. [4,c.233]Ata anasını onlara ehtiyacı olduğu dövrdə vaxtsız itirən yazıçının əmisi ona sahib çıxmış,böyüməsində,tərbiyə və təhsil mövzularında ona dəstəyini

əsirgəməmişdir.Valideyn itkisi uşaq yaşlarında ədibin həyatında böyük boşluq buraxmışdır. Lakin o bu bədbəxtliyini öz əleyhinə dəyişə bilmiş və bizim tanıdığımız kimi çoxlarının sevimlisi,dahi ingilis yazıçısı ünvanına qədər gəlib çıxa bilmişdir.Bununla bərabər onun ən çox dəyər verdiyi mövzu ailə mövzusu idi.Onun ən tanınmış əsərlərinin əsas və ya dolayısı yolla süjetini ailənin mənəvi əhəmiyyəti təşkil edir.Yazıçı "Ay və qara qəpik" və "Teatr" əsərlərində üstüörtülü olaraq öz psixologiyasından da işarələr vermişdir.Ata qayğısı görməyən ədib Çalz Striklendin timsalında ailəsini önəmsəməyən,övladlarını sevsə belə bunu bildirməyən laqeyd ata obrazını yaradıb.Övladlarını böyüdüb boya başa çatdırmaqdan ülvi insan üçün başqa nə ola bilər? Lakin Striklendin həyatda və Moemin əsərində missiyası rəssam olmaq idi.Təəssüflər olsun ki, bunu məhz övladlarının ona ehtiyacı olduğu dövrdə həyata keçirməyə başlayır.Bu yoldan onu döndərmək istəyən şəxsə isə etinasızlıqla cavab verir.-Hər şey cəhənnəm, axı, uşaqlarınız var. Onlar sizə nə pislik eləyiblər? Sizə yalvarmamışdılar ki, onları dünyaya gətirəsiniz. Belə getsə, onlar küçədə qalacaqlar.

-Onlar da indiyə kimi naz-nemət içində yaşayıblar. Çoxlarından firavan böyüyüblər. Elə bilirəm, kimsə onlara göz olacaq. Şübhəsiz, Mak-Əndru onları oxutduracaq da.

-Bəs siz heç onları istəmirsinizmi? Elə sevimli uşaqlardı ki, yəni tamam imtina eləyirsiniz onlardan?

-Nə qədər uşaq idilər, sevirdim onları, elə ki, böyüdülər, düzü, heç sevmirəm də.

- Bu ki vicdansızlıqdı.

Ola bilsin.

Heç olmasa xəcalət çəkmirsiniz?

Xeyr.[2,s.59]

Burada gözə görünən tərəf övladarını öz şəxsi mənafeyinə qurban verən ata obrazıdır.Buz dağının görünməyən tərəfi odur ki, Striklendin uşaq ikən rəssamlığa marağı olmuş,atası isə onu ticarətlə məşğul olmağa məcbur etmişdir.Burada basdırılmış duyğular ortaya çıxır və bizə məlum olur ki,Striklendin öz atası da ona qarşı laqeyd imiş.Bəlkə də onun bu cür hərəkətinin səbəbi uşaqlıqda ailədə aldığı travmalardan irəli gəlir.

Somerset Moemin əsərlərində ailə mövzusunda bir sıra ümumi cəhətləri olan obrazlar da var.Xüsusən də roman yaradıcılığına əsas diqqətini yönəldən yazıçının mövzu zənginliyi əsərləri daha çox oxunaqlı edir.Ailə,ev, şəxsi münasibətlər məsələlərinin qabarıq şəkildə gözə çarpdığı əsərlərdən biri də “Teatr” romanıdır.Qadının ailədə çox zaman ikinci plana qoyulmasının əksinə,ailə və uşağın tərbiyəsi məsələlərində ona daha çox məsuliyyət verilir.Lakin ata və ananın hər ikisinin uşağa və bir-birinə münasibəti eyni dərəcədə əhəmiyyətlidir.Bunlardan hər hansı biri digərindən zəif olduqda ailə divarlarında çatlar əmələ gəlir və sarsılmaz qala bir andaca dağılmaq təhlükəsilə üz-üzə qalır. “Teatr” romanının əsasında yaradıcı şəxs obrazı dayansa da burada ata ,ana və övlad məsələləri də vurğulanır. Xüsusən də ana obrazı daha çox gözə çarpır.Məşhur aktrisa Culiya Lembert gəncliyindən bəri bütün əlaqələrində heç kəsə bildirmədən rol oynayaraq həyatını zirvələrə yüksəldir.Yeri gəldikdə sevgili, mükəmməl həyat yoldaşı, ləyaqətli və

şərəfli bir xanım aktrisa rollarının öhdəsindən uğurla gəlir.İllərini birlikdə keçirdiyi arvadının aktrisalıq qabiliyyətini sonuna qədər istifadə etdiyindən əri Mayklın belə xəbəri olmur.Culiya heç bir çətinlik olmadan bütün bunların öhdəsindən gəlirdi.Bütün bunlara baxmayaraq onun həqiqi anası deyil,bir aktrisa olduğunu bilən yeganə şəxs Rocer idi. Ötən illər ərzində saysız-hesabsız tamaşalar göstərən bu aktrisa oğlunun qarşısında sözün əsl mənasında özünü itirmişdi. Rocer gülümsünüb:

- Həm də səs-küylü, - dedi. - Onda niyə özünü elə aparırsan ki, guya, məndən ayrıla bilmirsən? Bu da oyundur?

-Səndən belə sözlər eşitmək mənə çox ağırdır. Məndə belə bir hiss var ki, sənə olan borcumdan çıxa bilməmişəm.

-Elə deyil. Sən çox yaxşı ana olmusan. Mənə elə böyük bir yaxşılıq eləmisən ki, tək buna görə ömrüm boyu sənə minnətdar olacağam. Sən məni rahat buraxmısan.[1,s.267] Rocerin sözlərində həm ittiham həm də şikayət var idi.Bu,anasından həqiqi sevgi və qayğı görməyən uşağın şikayəti idi.Culiya bunu başa düşdüyünə görə pərt olurdu.Bu illər ərzində Rocer böyüdükcə onun istədiyi sadəcə Rocerin yaxşı təhsil, tərbiyə alması olmuşdur.Lakin ona ən önəmli şeyi-ana şəfqətini verməyi unutmuşdu.Həyatda anasının oynadığı rollardan başqa birşey tapa bilməyən Rocer onu teatr səhnələrindən izləməyə öyrəşmişdi.Bütün bunlar ailədə fərdlər arasına soyuqluğun girməsinə yol açmışdı.Ailə başçısı Maykl daha çox pul qazanmağı və öz teatr biznesini inkişaf etdirməyi,Culiya isə daima rəqibsiz aktrisa olaraq qalmağı və şəxsi həyatını daha ön planda tuturdu.Bunların əvəzində isə onlar öz övladlarının necə böyüdüyünü sadəcə köhnə şəkillərə baxanda hiss edirdilər.

Ümumilikdə götürsək Moemin həyatı 19-20ci əsrlərə təsadüf etdiyindən onun yaradıcılığı mövzuların zənginliyi ilə seçilir.Ədəbiyyatşünasların fikrincə Moem hər onillikdə öz yazı tərzini yeniləyərək inkişaf etdirə bilən az sayda sənətkarlardan biridir.Amma onun yazı tərzi digər ədiblərdən çox fərqlənir və özünəməxsusluğu ilə seçilir.Hətta oxuduqda artıq onun tərzini tanımaq mümkündür.Həyatı elə asan keçməsə də əmisinin sayəsində mükəmməl təhsil almış,öz maraqlarını da unutmamışdır.Əmisi onun həkim olmasını vəsiyyət edir.Bu belə də olur.Moem həkim təhsili alır.Hətta bu keyfiyyətə onun yaradıcılığında da rast gəlirik.Bir sıra əsərlərində həkim olarkən əldə etdiyi həyat təcrübələrinə də işarə edir.Lakin onun özünü həyatda görmək istədiyi sənət bu deyildi.Buna görə də bir müddətdən sonra ədəbiyyata yönəlir.Yazdığı ilk məqalələri uğurlu alınır və nəhayət, öz seçimində yanılmadığını hamıya sübut edir.Onun həyatı və yazdığı əsərlərindəki obrazlar arasında doğmalıq duyulur.Sanki “Ay və qara qəpik” romanındakı qırx yaşdan sonra həyatının mənasını rəssam olmaqda tapan Çarlz Striklend onun prototipidir.Striklend öz evində yad olduğunu hiss edirdi.Yad torpaqlarda,haradasa uzaqlarda onu cəlb edən qəribə bir hiss var idi.Danışdığı dil,yaşadığı ev, ailəsi, mühiti, işi bir sözlə, hər şey ona yad və maraqsız gəlirdi.Somerset Moemin də gənc ikən əmisinin evində yad hiss etməsi bundan irəli gəlirdi. Oğlan düşdüyü mühiti bəyənmədi, əmisinin evində özünü narahat hiss etdi. İngiltərə doğma ölkəsi kimi görünmürdü, o, ingilis dilini yalnız doqquz yaşında ciddi öyrənməyə başladı və uzun müddət fransız ləhcəsi ilə danışdı.[5,c.3] Buna baxmayaraq gördüyü hər bir işə

məsuliyyətlə yanaşır,sona qədər çatdırırdı.Yazıb yaratdığı hər bir əsər ona doğma idi.Əsərlərinin obrazlarını isə hər şeydən çox sevir,onlara diqqətlə yanaşırdı.Buna görə də həm mövzu seçimində, həm də obrazları ora daxil edərkən həyati təcrübələrinə də arxalanırdı.Onun bu uğurlarına görə İngiltərə ilə yanaşı Fransada da böyük dəstəkçi kütləsi var idi.Həmyerlisi olan Ceyms Oldric onu “İngiltərənin Mopassanı” adlandırırdı.Bu təsadüfi deyildi.Moem özü dəqeyd edirdi ki, fransız ədəbiyyatından çox şey öyrənib.Mopassan,Balzak kimi yazıçılardan örnək almış,Volteri öz idealı olaraq seçmişdi.Bütün bunları nəzərə alsaq görərik ki, Uilyam Somerset Moem nə qədər bacarıqlı bir ədib olmuşdur.Onun fransız dilini və ədəbi yazı tərzini çox gözəl bilməsinə rəğmən biz onu ingilis yazıçısı olaraq tanıyırıq.Bütün ömrünü öz vətəninə xidmətə həsr edən bu dahi şəxs ölümündən əsrlər keçsə belə dövləti üçün sadiq vətəndaş, oxucuları üçün əvəzedilməz yazıçı, xələfləri üçün isə mükəmməl nümunə olaraq daima yad ediləcək.

## Ədəbiyyat

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Tərcümə Mərkəzi.Bakı:2016-568 səh.
2. Bakı,Qanun Nəşriyyatı, “Əli və Nino” Nəşriyyatı,2019,296 səh.
3. Ramil VƏLİBƏYOV Yeni Azərbaycan.- 2011.- 23 aprel.- S.10.
4. Н.Л.Утевская,English &American Literature,400 с.
5. W.Somerset Maugham,Theatre,"Высшая школа",1985,223 с.

**Kamilova Lalə Ayəddin**

**Somerset Moemin yaradıcılığında ailənin mənəvi əhəmiyyəti**

**Xülasə**

Somerset Moemin yaradıcılığı ailə-məişət,ailə üzvlərinin bir-biri ilə münasibəti mövzuları baxımından xarakterikdir.Xüsusən də cəmiyyətin əsas tərkib hissəsi olan ailə strukturu onun roman yaradıcılığında oxucuların nəzərinə çatdırılır.Ailə mövzusu həm geniş əhatə dairəsi həm də çoxşaxəliliyi ilə seçilir.Yazının əsas mövzusu “Teatr” və “Ay və qara qəpik” əsərlərinin seçilmiş obrazlarının təhlili əsasında bu mövzunun geniş kütləyə çatdırılmasıdır.Xüsusən də Culiya və Maykl obrazları digər romanın qəhrəmanı olan Çarlz Striklendə qarşı qoyulub.Verilmiş valideyn obrazları bir-biri ilə bir sıra xüsusiyyətlərinə görə oxşarlıq təşkil edir.Şəxsi həyat və sənətçilik xüsusiyyətləri nəzərə çatdırılır.Somerset Moemin romanlarında bu kimi mövzular xarakterikdir.Yazıçı ailə dəyərlərini də əsərlərində ön plana gətirir.Bu cəhətləri müqayisəli araşdırmaq obrazlar arasındakı münasibətləri tədqiq etməyə kömək edir.

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2024*
*Səh. 424-428*

**Kamilova Lala Ayeddin**

**The moral importance of family in Somerset Maugham's creativity**

**Summary**

Somerset Maugham's creativity is characterized by the themes of family-household and the relationship of family members with each other. In particular, the family structure, which is the main component of society, is brought to the readers' attention in his novels. The family theme is distinguished by its wide scope and diversity. Based on the analysis of the selected characters of the works "Theatre" and "The Moon and Sixpence ", this topic is brought to a wide audience. Especially, the characters of Julia and Michael are compared to the hero of another novel, Charles Strickland.Given parental images are similar to each other in a number of characteristics. Personal life and artistic features are taken into account. Somerset Maugham's novels feature such themes. The writer brings family values to the fore in his works. Comparative study of these aspects helps to study the relationships between the characters.

**Камилова Лала Айеддин**

**Нравственное значение семьи в творчестве Сомерсета Моэма**

**Резюме**

В творчестве Сомерсета Моэма семейная тематика занимает не последное место и взаимоотношений членов семьи друг с другом. В частности, в его романах вниманию читателей предлагается проблема семейных отношений, являющийся основной составляющей общества. Семейная тема отличается широким размахом и разнообразием. На основе анализа главных образов произведений «Театр» и «Луна и грош» данная тема доводится до широкой аудитории. В частности, персонажи Джулия и Майкл сравниваются с героем другого романа Чарльзом Стриклендом. Данные родительские образы схожи между собой по ряду характеристик. Учитываются личная жизнь и художественные особенности.Такая тематика присутствует в романах Сомерсета Моэма.Писатель выдвигает в своих произведениях на первый план семейные ценности.Сравнительное изучение этих аспектов помогает изучить взаимоотношения между героями.

**Rəyçi:dos. Süleymanova Tünzalə**